Bilməyə dəyər






# London Metal Birjası

London Metal Birjası (LMB) (ing. - London Metal Exchange (LME)) - əlvan metallar satışı üzrə ixtisaslaşan dünyanın aparıcı əmtəə birjasıdır.



## YARANMA TARIXI

XIX əsrin ortalarında Britaniya dünyanın ən böyük mis və qalay istehsalçısı oldu. Inkişaf etməkdə olan sənayenin xammal ehtiyacları əsasən yeni Cənubi Amerika, Afrika və Asiyada kəşf olunmuş yataqlardan ödənilirdi. Okeanlar arasında nəqliyyat riskli idi. Gəmilərin müxtəlif səbəblərdən gecikmələri xammalın qiymətlərinə əhəmiyyətli dərəcədə təsir edirdi və buna görə də, satıcı və alıcılar üçün riskli hesab olunurdu. Getdikcə inkişaf edən nəqliyyat və rabitə əlaqələri (teleqraf sonra isə telefon

icad edildi) daşınma ilə bağlı çətinlikləri aradan qaldırmağa kömək etdi. Məsələn, tacirlərin rabitə əlaqələri vasitəsilə əvvəlcədən xammal təchizatı haqqında məlumat əldə etmək imkanı yarandı. Bu isə öz növbəsində gələcəkdə sövdələşmələrin bağlanmasına gətirib çıxartdı. Ticarətin həcmi artmışdı və treyderlər əməliyyatları başa çatdırmaq üçün müntəzəm görüşlər keçirirdilər. Əvvəlcə, treyderlər "Jerusalem Coffee House" adlı bir kafedə danışıqlar aparır və sövdələşmələr bağlayırdılar. 1876-ci ildə, onlar Lombard Məhkəməsinin binasında 1 yanvar 1877-ci il tarixində öz işinə başlayan London Metal Birjasını yaratdılar. Təcili sövdələşmələr üç aylıq dövr üzrə aparılırdı, buna səbəb Çili və Sinqapurdan misin Birləşmiş Krallığa təxminən üç ay müddətinə çatdırılması idi.
1882-ci ildə birja Vittinqton prospektində (Whittington Avenue) yerləşən yeni binaya, 1980-ci ildə isə Planteyşn Hausa (Plantation House) köçürüldü. Hal-hazırda birja Leadenhal Street 56 (Leadenhall Street, 56) ünvanında yerləşir.
Əvvəlcə Birjada iki metalın mübadiləsi aparılırdı: Mis və qalay. 1897-ci ildə gümüşün mübadiləsinə başlandı. Lakin 1914-cü ildə, gümüşün alışı və satışı (ticarət 1935-1939-cu illər arasında qısa müddət ərzində bərpa olunmuşdu) dayandırıldı. Sonra Fond Birjası gümüş ticarətini 1968-ci ildə bərpa etməsinə baxmayaraq, 1989-cu ilin iyun ayına qədər davam etdi. Qurğuşun və sinkin ticarəti rəsmi olaraq 1920-ci ildə başladı (bu dövrə qədər qeyri-rəsmi ticarəti həyata keçirilirdi). İkinci Dünya müharibəsi zamanı 1949-cu ilə qədər Birja fəaliyyətini dayandırmışdı. 1978-ci ildə nikelin, 1979-cu ildə isə alüminiumun ticarəti başladı. Beləliklə LMB altı əlvan metalların (mis, alüminium, qalay, nikel, qurğuşun və sink) ticarəti üzrə dünyanın aparıcı mərkəzi hesab olunurdu. 10 aprel 2000-ci ildə bu altı metalların göstəriciləri üzrə "LMEX müqavilə"si bağlandı. Davamlı olaraq ticarət üsullarının inkişaf və təkmilləşdirilməsi nəticəsində 2002-ci ildə alüminium ərintiləri, 2005-ci oldə isə plastikin ticarəti üçün yeni müqavilələr bağlandı.

## BİRJANIN FUNKSIYALARI

London Metal Birjasını əsas funksiyaları aşağıdakılar hesab olunur.
1. Xammalın gündəlik qiyməti təyin edilir. Beləliklə LMB-nda malların dünya üzrə qiyməti formalaşır. Birjada Dünyanın ən böyük (əlvan metalların (istehsalçı, istehlakçı və satıcıları hesab olunan) şirkətlərinin maraqları təmsil edildiyinə görə, cari ticarətin nəticələri tələb və təklif arasındakı vəziyyəti əks etdirir.
2. Hedcinq. Bu malın satılan və ya gələcəkdə əldə olunduğu qiymətinin dəyişməsi riskinə qarşı müdafiə formasıdır. Hedcinq 130 ildən çoxdur ki, birjanın əsas funksiyalarından biridir. Məsələn, LMB hedcinq əməliyyatları 1877-ci ildən Birjasının yarandığı gündən etibarən həyata keçirilir.
3. Çatdırılma təminatı (müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi təminatı). Birjada alınan və ya satılan real malların çatdırılması zəmanəti anbarlarda mövcud malların kifayət qədər olması ilə təmin olunur. Məsələn: LMB-nin Böyük Britaniya ərazisində və Uzaq Şərqdə (Yaponiya, Sinqapur) yeddi, Avropada on və Şimali Amerikada anbarları vardır. Dövlət orqanları tərəfindən birjalar haqqında qəbul olunmuş qanunvericiliyə əsasən xüsusi hesablamalar sistem yaradılmışdır. Bu hesablama sistemi birjalarının fəaliyyəti üzərində nəzarət üzrə əməliyyatların və daxili müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsinə zəmanəti təmin edir.
Onun əsas funksiyalarının icrası ilə yanaşı, Birja Bazar İqtisadiyyat İnstitutu hesab olunur və bazar münasibətlərinin iştirakçılarına aşağıdakı imkanları yaradır:
- Qiymət fərqi ilə əməliyyatlar. Bu cür əməliyyatların məqsədi real məhsulları almaq və ya satmaq deyil (möhtəkirlər, bazarda likvidliyin artırılmasını və qiymət riskini öz üzərinə götürməklə fyuçers ticarətində mühüm rol oynayır və bununla hedcirqlərə yardım etmiş olurlar);
- Kapitalın mallara investisiya edilməsi. Bir çox firmalar (xüsusilə, maliyyə, investisiya, və s) pullarını inflyasiyadan qorumaq məqsədi ilə öz məhsullarını alırlar. Məhsulun qiymətinin yüksəlməsi nəinki

pulları inflyasiyadan qoruyur, bəzən daha səmərəli gəlir əldə etməyə şərait yaradır;

- Arbitraj əməliyyatı. Müxtəlif bazarlarda (yəni, müxtəlif ölkələrin birjasında) əmtəə qiymətləri fərqli olduqda, birja ticarətinin iştirakçıları eyni vaxtda mallarını müxtəlif birjalarda alır və ya satırlar və nəticədə əlavə mənfəət əldə etmiş olurlar;
- Maliyyələşdirilmə. Bu xidmət varrant (məhsullara sərəncam vermək hüququ verən birjanın anbar sertifikatı) sahibləri tərəfindən istifadə edilə bilər. Məsələn: sahibi məhsulu satmaq istəmir, lakin ona bir müddət üçün pul lazımdır. Bu halda o, brokerin vasitəsi ilə varrantın satışı ilə eyni zamanda, gələcəkdə məhsulların alınması və çatdırılmasını təşkil edə bilər. Lendinq kimi tanınan bu əməliyyat, məhsul sahibinin mövqeyini saxlamaq üçün müvəqqəti pul vəsaiti almağa imkan verir.

## BİRJANIN STRUKTURU

Birja təşkilati və hüquqi statusa görə məhdud məsuliyyətli cəmiyyətdir. Ümumi idarə etməni təşkil edən Birja Komitəsi xüsusilə, ticarətin nəticəsi əsasında hər gün rəsmi qiyməti elan edir. Birja üzvləri müxtəlif kateqoriyaları tutur. LMB iştirakçıları altı kateqoriya üzrə bölünürlər:

1. Ring Dealing Members – maksimum hüquqlara, o cümlədən rinqdə sövdələşmə









bağlamaq hüqüqüna malik iştirakçılar;
2. Associate Broker Clearing Members – rinqdə sövdələşmə bağlamaq hüququ istisna olmaqla, maksimum hüquqlara malik iştirakçılar;
3. Associate Trade Clearing Members – şəxsi sövdələşmələrində kliring palatasının vasitəsilə ödəniş etmək hüququna malik iştirakçılar;
4. Associate Broker Members – broker xidmətlərini həyata keçirmək hüququ olan, lakin tender zamanı sövdələşmələr etmək hüququ olmayan iştirakçılar;
5. Associate Trade Members – müştəri rolunda sövdələşmələr bağlamaq hüququ olan iştirakçılar;
6. Individual and Honorary Members – birjada mübadilə aparmaq hüququna malik olmayan fərdi və fəxri üzvlər hesab edilən iştirakçılar.

26 aprel 2012-ci il tarixinə rinqdə mübadilə edən, yəni Ring Dealing Members kateqoriyasına aid olan təşkilatların siyahısı:

- Amalgamated Metal Trading Limited;
- Barclays Capital;
- ED&F Man Capital Markets;
- INTL FCStone (Europe) Ltd;
- J.P. Morgan Securities Ltd;
- MAREX Financial Limited;
- Metdist Trading Ltd;
- Natixis Commodity Markets Limited;
- Newedge Group (UK Branch);
- Societe Generale;
- Sucden Financial Limited;
- Triland Metals Ltd.

Hərracın təşkili.

Fond birjasında hərrac, hər iki sessiya ərzində istirahət və bayram günləri istisna olmaqla, gündəlik keçirilir:

- Birinci sessiyada hərrac saat 11:40-da başlayır və 14:45-də bitir;
- İkinci sessiyada hərrac saat 14:55-də başlayır və 17:00-da bitir.

Birinci və ikinci sessiyaları zamanı hər metal növü üzrə iki dəfə hərrac keçirilir. Bir metalın ticarəti müddəti - 5 dəqiqədir. Hər bir məhsul üçün günün rəsmi qiyməti ilk (səhər) sessiyasının ikinci hərracının nəticələri əsasında elan edilir. Hərrac standart birja müqavilələrinə uyğun olaraq həyata keçirilir. Müqavilələrin iki növü var: Fyuçers və opsionlar. Hər bir müqavilə aşağıda sadalanan göstəriciləri müəyyən edir:

- məhsulun həcmi ( misal olaraq, mis, sink, qurğuşun və alüminium - 25 t, nikel - 6 t, qalay - 5 t);
- CIF Rotterdam əsasında çatdırılma şərtləri (CIF- ing. Cost Insurance and Freight – dəyər, sığorta və nəqliyyat xərci). CIF əsasında çatdırılma şərtləri, məhsul nəqliyyat vasitəsinə yüklənən zamanı, onun satış qiymətinə məhsulun dəyəri, nəqliyyat xərcləri və sığorta dəyərinin daxil olmasını tələb edir;
- öhdəliklərin yerinə yetirilməsi müddəti (dərhal çatdırılma, üç aylıq, altı aylıq və s. müddətlik);
- məhsulun keyfiyyət standartları tələbləri (misal üçün alüminium - 99,7%; sink - 99,995% ; qalay - 99, 85% və s.).

Sövdələşmə bağlamaq ünün yalnız müqavilənin sayını və qiymətinin müəyyən etmək lazımdır. Sövdələşmələr ənənəvi olaraq səs vermə yolu ilə ("open outcry" üsulu) bağlanılır. İclasdan sonra bütün müqavilələr Birjada Kliring Palatasında qeydiyyatdan keçirilir.

***Aidə Bağırova***